BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№2 *Humanitar elmlər seriyası* 2009

## QARABAĞ VƏ GÜRCÜ-ABXAZ MÜNAQİŞƏLƏRİ
**(etnogenez məsələsi)**

**R.Ş.HƏSƏNOV**
*Bakı Dövlət Universiteti*
*isgenderbeyli@hotmail.com*

Cənubi Qafqazın etnosiyasi durumu və yaşadığı inkişaf mərhələsi milli düşüncənin formalaşması, milli fərdiyyətin axtarışı və milli dövlətlərin qurulmasına edilən cəhdlərlə xarakterizə olunur. Bütün bu proseslər başqa mühüm bir anlayışın - özünüdərketmə və soy kökünə qayıtma ideyasının formalaşması və onun reallaşması üçün müxtəlif formalar haqqında təsəvvürlər yaradır.

D.Malışeva bu məsələlərin formalaşmasında aşağıdakı amillərin rolunu qeyd edir: çoxmillətli dövlətin daxilində muxtariyyətin yaradılması; xüsusi müstəqil dövlətçilik yaratmaq məqsədilə dövlətdən siyasi və ərazi ayrılması, separatizm; bir neçə dövlətin ərazisində yaşayan əhalinin birləşməsi; mədəni-tarixi planda qohum olan digər dövlət birləşməsi – irredentizm (5, 29).

Əlbəttə, onu da qeyd etmək lazımdır ki, bu amillər ayrı-ayrı münaqişələrlə əlaqədar olaraq müxtəlif ola və dəyişə bilər. Cənubi Qafqazda uzun illər davam edən münaqişələr buna misaldır. Bir tərəfdən, Azərbaycan və Ermənistan arasında mövcud Qarabağ münaqişəsi, digər tərəfdən, Abxaziya məsələsi əslində bir-birindən xüsusilə etnogenez baxımından kifayət qədər fərqlənən münaqişələrdir. Hər iki münaqişə, onların tarixi inkişafı və səbəbləri və hətta nəticələri ilə bağlı çoxlu sayda əsərlər yazılmış və müəyyən fikirlər söylənilmişdir, lakin təbii ki, bu fikirlər bəzən o qədər bir-birindən uzaq olur ki, onların təhlili və müzakirəsində daha çox subyektivlik və qarşılıqlı ittihamlar özünü göstərir. Bu məsələlərin həllində, fikrimizcə, yeganə obyektiv və bu günə qədər, demək olar ki, tədqiqata cəlb olunmayan yanaşma bu münaqişələrin tarixidir, belə ki, bu münaqişələr dünya ictimaiyyəti nəzərində Cənubi Qafqaz münaqişələri kimi qəbul edilsə və ya bəzən eyni görünsə də, əslində onların arasında böyük fərqlər mövcuddur.

Müasir gürcü-abxaz münaqişəsi buna bənzər qarşıdurmalar kimi dərin tarixi köklərə malikdir. Bu haqda bir çox əsərlərdə bəhs olunur və müəlliflər uzaq və yaxın keçmişdə baş vermiş hadisələri müxtəlif şəkildə qiymətləndirirlər. Siyasi və tarixi şərhlərin müxtəlifliyi mahiyyət etibarilə ya abxazların Gürcüstandan asılı olmayan dövlətçiliyə tarixi hüququnun əsaslandırılmasına, ya da onun inkarına gəlib çıxır.

Əlbəttə, Azərbaycan-Ermənistan arasında mövcud münaqişə ilə gürcü-abxaz münaqişəsi arasında böyük fərqlər mövcuddur və bu fərqlər özünü daha çox etnogenez məsələsində göstərir. Qarabağın yerli əhalisi azərbaycanlılardır və onlar başqa mənşəli ermənilərin işğalına məruz

qalmış və bu ərazilər heç vaxt ermənilərin olmamışdır.

Azərbaycan ərazisində unikal insan məskəni – Azıx mağarası onun aşkar edilmiş geniş materialı ibtidai icmanın, ilk insanların, bu ərazidə məskunlaşmış insanın formalaşması və inkişafı haqqında son dərəcə böyük əhəmiyyətə malikdir. Azıx mağarasına görə biz bu ərazidə məskunlaşmış əhalinin, yəni bizim tariximizi lap qədim dövrlərdən başlaya bilərik – milyon il bundan çox əvvəl. Qarabağ zonasında eneolit dövrü qonşu vilayətlərdə olduğu kimi, çox güman ki, e.ə. VI-V əsrlərdə daxil olur. Bu, həmin regionda qədim əkinçi-maldar təsərrüfatın və oturaq-əkinçi mədəniyyətinin formalaşması dövrüdür. Qarabağın tunc və erkən dəmir dövrü mədəniyyəti qəbir abidələrində öz əksini tapmışdır. Son tunc dövrünə aid kurqanlar (Dovşanlı, Arçadzar), Azərbaycanın digər kurqanları kimi (Xanlar, Borsunlu, Sarıçoban) kifayət qədər zəngin inventara malikdir. Hesab edirlər ki, Qarabağın qərb hissəsi Urartu mənbələrində Urtexe-Urtexini adlanırdı. Zonanın daha sonrakı adının – Artsaxın Urtexedən törədiyi haqqında fərziyyə doğrudursa, onda bir sıra erməni müəlliflərinin iddiasına əks olaraq tamamilə şübhəsizdir ki, bu ad (Artsax) erməni mənşəli deyil, ona görə ki, o dövrdə və daha sonrakı vaxtlarda burada heç bir erməni yox idi. Midiya-Əhəməni dövründə midiyalıların və daha sonrakı farsların hakimiyyəti Cənub-Şərqi Qafqaza, o cümlədən Dağlıq Qarabağa yayılmışdı. Hələ Herodot iddia edirdi ki, farsların hakimiyyəti Qafqaz silsiləsinə qədər uzanırdı. Bir sıra faktlar belə düşünməyə əsas verir ki, bu mənzərə Midiya dövrünə gedib çıxır. Fars dövlətinin XI satraplığına, bir sıra nüfuzlu alimlərin hesab etdiyi kimi, kaspi ümumi adı altında gizlənən albanlar da daxil idi. Cənub-Şərqi Qafqazın digər hissəsi XIV satraplığa daxil idi ki, bura utilər (sonrakı udinlər), mikilər (Muğan zonasının sakinləri) və saqartilər (Cənubi Azərbaycanda yaşayanlar) aid idi (1, 15-16).

Deyilənləri nəzərə alaraq belə bir fikirlə razılaşmaq mümkün deyildir ki, utilərin yaşadığı Artsax nə vaxtsa Yervandid Ermənistanın tərkibində yerləşmişdi. Bunun üçün heç bir əsas yoxdur.

Lakin Qarabağ münaqişəsindən fərqli olaraq gürcü-abxaz münaqişəsində vəziyyət tamamilə başqa cürdür. Belə ki, bu münaqişənin əsasında etnogenez məsələsi də dayanır. Hər şeydən əvvəl, bunlar (abxazlar və gürcülər) bir yerdə yaşamalarına və zahirən eyni mədəniyyətə və tarixə malik olmalarına baxmayaraq qohum olmayan xalqlardır. Abxazlar abxaz-adıgey qrupu dillərindən birində danışırlar. Hal-hazırda Qərbi Qafqazda yaşayan yaxın qohum abazin, adıq, kabardinlər, çərkəz, şapsuq və digər xalqlarla birlikdə onlar özlərini Şimali Qafqaz etno-mədəni qurumun ayrılmaz hissəsi hesab edirlər. Bununla yanaşı, abxazların Qafqaz dağ silsiləsinin cənub ətəyindəki qonşu rayonlarda yaşaması Şimali Qafqaz xalqlarına nisbətən Kiçik Asiya və Aralıq dənizi mədəniyyətləri ilə daha geniş əlaqələri şərtləndirir.

Abxazların etno-ərazisinin coğrafi mövqeyi – Qara dəniz sahili, onları bütün Qərbi Qafqaz regionunun tarixi prosesinin ən mühüm subyektinə çevirdi, onlar üçün sonralar Şimali Qafqazın uzanan düzənliyi xarici aləmlə birləşdirən iqtisadi və mədəni körpü rolunu təşkil etdi.

Abxazlar üçün milli faciə mühacirlik oldu – Qafqaz müharibəsi bitdikdən sonra dağlıların Türkiyəyə kütləvi köçməsi. 1860-1870-ci illərdə onların yarısından çoxu doğma yerlərdən getdi, bununla yanaşı, etnosun mərkəzi hissəsi (qum) Türkiyədə məskunlaşdı və əvvəllər kompakt, dəniz boyu uzanan etno-ərazi iki hissəyə bölünmüş oldu: şimal-qərbi (bzıst)

və cənub-şərqi (abcuy).

Bu münaqişələr arasında digər mövcud fərqlərdən biri xalqlar arasındakı münasibətlərdir, yəni Qarabağda yerli əhali olan azərbaycanlılarla Ermənistanın əhalisi olan gəlmə haylar (ermənilər) arasında – Gürcüstanda iki yerli xalq - gürcülərlə öz tarixi torpaqları və mədəniyyəti, dili və hüququ olan abxaz milləti arasında.

Gürcü-abxaz münasibətləri öz kökləri ilə uzaq keçmişə gedib çıxır. Kolxida tunc mədəniyyətinin çiçəklənmə dövründə abxaz abidələri bir sıra lokal xüsusiyyətləri ilə seçilərək bütün qərbi Gürcüstan mədəniyyəti ilə ümumilikdə vəhdət təşkil edirdi. Antik dövrdə Abxaziya ərazisi Kolxida siyasi birliyə daxil idi, eranın IV əsrindən başlayaraq o, Laz çarlığının tərkibinə (Eqriss) daxil oldu.

Təxminən VIII əsrin 80-ci illərinin əvvəllərində Qərbi Gürcüstanın Abxaz knyazlığının rəhbərliyi altında siyasi birləşməsi baş verdi. Yeni qərbi gürcü siyasi birliyi «Abxaz çarlığı» adını aldı. Abxaz çarlığının etnik tərkibi müxtəlif idi. Onun əhalisinin böyük əksəriyyətini kartvellər (eqrislər, svanlar, kartlar), lakin müəyyən sayda abxazlar və çarlığın şimal-qərb rayonlarında yaşamış abxaz-adıgey kökünün bir sıra digər etnik qurumları təşkil edirdi.

Abxaz çarlığında kartvel elementi sosial-iqtisadi və mədəni sahədə daha çox inkişaf etmişdi. Buna görə gürcü dili bütün çarlıqda əsas yazı və mədəni vasitə kimi tədricən ümumi dilə çevrildi və demək olar ki, tamamilə yunan dilini sıxışdırdı. Bu vəziyyət və bununla yanaşı ictimai-siyasi inkişafın digər meylləri ona gətirib çıxartdı ki, yaranışından tezliklə sonra Abxaziya və abxazlar feodal Gürcüstanın siyasi qurumlarının ümumi sisteminə daxil oldu.

Abxaz çarlığı dövründə Abxaziya və abxazlar terminlərinin mənası da genişlənir. Bundan etibarən bütün Qərbi Gürcüstan ərazisi adətən Abxaziya adlanmağa başlanır, lakin bu mənada əvvəl işlənən Eqrisi termini (Lazika) tamamilə sıxışdırılmır. Buna müvafiq olaraq, abxazlar termini də yeni anlayış kəsb edir və bu termin Abxaz çarlığının bütün müxtəlif əhalisini ifadə edir. Bununla yanaşı, Abxaziya və abxazlar terminləri yalnız Abxaziya və abxaz milləti kimi qəbul edilən əvvəlki mənasını saxlayırdı (6, 14).

IX əsrin əvvəlində Abxaz çarlığı fəal şəkildə Gürcüstan ərazisində yaradılmış çarlıq və knyazlıqlar arasındakı uzun mübarizəyə qoşuldu. Bu mübarizə obyektiv olaraq feodal Gürcüstanının birləşməsinə aparıb çıxarırdı ki, bu da ölkənin sonrakı sosial-iqtisadi maraqları feodalların kəndlilər üzərində sinfi hakimiyyətinin möhkəmlənməsi və xarici işğalçılardan uğurlu qorunmaq üçün birləşmə zərurətindən irəli gəlirdi.

Uzun müddət ərzində Abxaz çarlığı Gürcüstanın birləşməsi prosesində aparıcı rol oynamışdır. Abxaz çarlığının mədəni və kilsə siyasəti də ümumi gürcü maraqları tərəfindən diktə olunurdu. Bu məqsədlə, məsələn, çarlığın hakim dairələri öz kilsəsinin Konstantinopol patriarxatına tabe olmaqdan qurtarır və onu mçxts katolikosundan asılı vəziyyətə salır (2, 17).

Artıq qeyd edildiyi kimi, abxaz milləti həmişə Abxaz çarlığının etnik cəhətdən müxtəlif olan əhalisinin tərkib hissəsi idi. Müasir Abxaziya ərazisi bu dövlətin üç inzibati vahidinin tərkibinə daxil idi- Abxaz Çxum (suxum) və qismən Bedi eristavlığı. Abxaz çarlığının siyasəti tarixən formalaşmış vəziyyətə görə ümumi gürcü olduğundan, (bu çarlığın bir hissəsini təşkil edənlər) abxazlar öz əsil torpaqlarında yaşayaraq bu

siyasətin aktiv bələdçiləri idi. Belə ki, bu siyasət onların da maraqlarına uyğun gəlirdi. Bundan başlayaraq keçmiş Abxaz çarlığı (X əsrin II yarısında ölkənin birləşməsi uğrunda mübarizədə hegemonluğunu itirmiş) vahid gürcü dövlətinin bir hissəsinə çevrildi və onunla birlikdə onun tərkibinə Abxaziyanın özü də daxil oldu.

Abxaz çarlığının uzun illər boyu Gürcüstanın birləşməsi yolunda əsas rol oynaması məsələsi «Abxaziya» və «abxazlar» terminlərinin mənasının sonrakı inkişafında da öz əksini tapmışdır. O dövrün həm gürcü, həm də xarici mənbələrində bu terminlərlə vahid gürcü dövləti və onun bütün əhalisi adlandırılır.

XI-XIII əsrlərdə «Abxaziya» və «abxazlar» terminləri əsasən üç mənada işlənirdi: 1) Abxaziyanın özü və abxaz milləti; 2) Qərbi Gürcüstan və onun sakinləri; 3) bütün Gürcüstan və onun əhalisi. Sonuncu mənada gürcü ədəbiyyatında «Sakartvalo» (Kartli) və kartvellər terminləri də işlənir (2, 16).

Abxazların Gürcüstan çarlığında mühüm rol oynadığının göstəricilərindən biri də ondan ibarətdir ki, taxtın varisi Qeorqiy (çariça Tamaranın oğlu) doğularkən ikinci adla da adlandırılmışdır – Laşa – bu da abxaz dilində (mənbənin ifadəsi ilə, apsarların dilində) «işıqlı, açıq, aydın» deməkdir (6, 14).

XV əsrin sonuna qədər Gürcüstan qəti olaraq ayrı-ayrı çarlıq və knyazlıqlara parçalandı. Abxaziya da hələ Sabedianadan vassal asılılıqda olan müstəqil knyazlıq yolunda idi.

XVI əsr ərzində Abxaziya Meqrel knyazlığından asılı vəziyyətdə olmuşdu. Lakin abxaz feodalları həmişə bu asılılıqdan azad olmağa çalışırdı. Meqreliyanın knyazları Abxaziyaya burada öz siyasi nüfuzlarını qorumaq üçün hərbi yürüşlər etdi. Digər tərəfdən, abxaz feodalları dəfələrlə Qərbi Gürcüstanda daxili müharibələrdə iştirak etmişdilər. Belə hallarda onlar, bir qayda olaraq, meqrel mülkədarlarını (öz tabeçi vəziyyətlərinə görə) dəstəkləyirdilər.

XVII əsrin əvvəllərində İmeret çarından bilavasitə vassalığa çevrilən müstəqil Abxaz knyazlığı rəsmiləşdi. Lakin Meqrel knyazlıqlarının hakim dairələri Abxaziyada keçmiş nüfuzunu bərpa etməyə ümidlərini itirmədilər və bu da yeni toqquşmalara gətirib çıxartdı.

XVII əsrin II yarısında Meqrel knyazlığının vəziyyəti birdən-birə pisləşdi. Bundan abxaz feodalları istifadə etdilər və Meqreliyanı aramsız hücumlara məruz qoydular və güclü müqavimətlə qarşılaşmadılar. XVII əsrin 80-ci illərində abxazlar Meqrel knyazlığının şimal-qərb hissəsində möhkəmlənə bildilər, yəni Kodori və İnquri çayları arasında yerləşən əraziyə sahib oldular. Bu dövrdən etibarən İnquri Abxaz knyazlığının cənub sərhədinə çevrilir.

Azlıqları «tarixi gürcü torpaqlarında qonaq» elan etməklə gürcü ictimai-siyasi fikir və milli hərəkat əvvəldən meqren və svanları vahid gürcü millətinin tərkibinə daxil etmiş və onların şəxsi milli varlıq hüququnu rədd etmişdi. Bu, gürcülərin milli həmrəyliyini son dərəcə çətinləşdirdi: müxtəlif fikirlərə görə gürcü etnosunun 20-dən – 30 faizinə qədərini meqrellər təşkil edir (2, 125).

Gürcülərin «öz tarixi torpaqlarına» hüquqlarını möhkəmlətmək üçün ilk cəhdləri Rusiya imperiyasının dağılmasından sonra, müstəqil Gürcüstan Respublikasının mövcud olduğu illərdə (1918-1921) həyata keçirilmişdir. O dövrdə onun əhalisi öz etnik müxtəlifliyini saxlayırdı:

gürcülərin (meqrel və svanlarla) ümumi sayı 64,8% idi. Belə bir vəziyyətin mövcud olması artıq milli məsələyə çox ehtiyatla yanaşmağı tələb edirdi. Lakin maksimal dərəcədə qısa müddət ərzində milli həmrəyliyə nail olmağa çalışan ölkə hakimiyyət dairələri etnik azlıqlara açıq-aşkar şovinistcəsinə yanaşırdılar.

1917-ci ilin noyabrında abxaz xalqının qurultayı Abxaziyanın Şimal-Qafqaz Dağlıq dövlətə birləşdirilməsi haqqında qərar qəbul etdi. Lakin Gürcüstan Rusiyanın cənubunda başlamış vətəndaş müharibəsi şəraitində və german ordusunun dəstəyi altında Abxaziya üzərində nəzarəti ələ ala bildi və hətta bütün Qara dəniz sahilinə iddialarını bildirdi – Anapaya və Kuban çayının mənsəbinə qədər (XI-XIII əsrlərdə Gürcüstana məxsus olması əsasında) (6, 18).

Z.V.Ançabadze o dövrdəki vəziyyəti belə təsvir edir: «Abxaziyada «milliləşdirmə» siyasətini yürütməyə başladılar: gürcü dili dövlət dili elan edildi və bu dilə sənədlər tərcümə edilir, məktəblərdə tədris bu dildə aparılır, bununla bərabər, gürcülərin kütləvi yerdəyişməsi başlandı. Bu dövrdə baş verən çoxlu sayda soyğunçuluqlar və gürcü ordularının azğınlığı ilə birlikdə belə vəziyyət və addımlar Abxaziya əhalisinin narazılığına və etirazına səbəb oldu (o cümlədən, yerli meqrellərin). Buna görə 1921-ci ildə martda Abxaziyada sovet hakimiyyətinin qurulması ölkənin əhalisi tərəfindən ilk növbədə milli zülm və gürcü işğalından xilasolma aktı kimi qəbul edildi» (2, 18).

1921-1931-ci illərdə Abxaziya müttəfiq respublika statusuna malik idi və Gürcüstana xüsusi saziş əsasında birləşirdi. 1931-ci ilin fevralında onun statusu Gürcüstanın tərkibində muxtar respublika səviyyəsinə qədər endirilmişdi. 1930-cu illərin ortalarında Abxaziya tarixinin xüsusi faciəli dövrü başlayır. Z.V.Ançabadze yazır ki, o dövrdə Abxaziyanın gürcüləşdirilməsi məqsədilə mahiyyətcə onun yerli əhalisinə qarşı aksiyalar həyata keçirilirdi; abxaz ziyalılarının fiziki məhv edilməsi; bütün hakim dövlət orqanları və ictimai təşkilatlar, həmçinin müəssisələrdən abxazların bütün rəhbər işçilərinin kənarlaşdırılması və onların gürcülərlə əvəz edilməsi; abxaz məktəblərinin bağlanması və məcburi olaraq abxaz uşaqlarını gürcü təhsil müəssisələrinə təyin edilməsi, orta məktəb proqramlarından abxaz dilinin tədrisinin çıxarılması; abxaz yazısının gürcü əsasına çevrilməsi; bir çox abxaz toponimlərinin gürcü toponimləri ilə əvəz olunması; abxaz familiyalarının onların gürcüləşmiş formaları ilə əvəz edilməsinə məcburiyyət; abxaz milliyyətindən olan şəxslər üçün sosial inkişafın çətinləşməsi və eyni zamanda gürcülər üçün belə imkanların yaradılması; Abxaziyanın kütləvi şəkildə gürcülərlə məskunlaşması; abxaz xalqının məişət mədəniyyətinin hər cür dəyişməsi; Abxaziya tarixinin saxtalaşdırılması və abxaz xalqının gürcü tayfası kimi elan edilməsi. 1950-ci illərin ortalarında gürcü hakimiyyətinin abxazların milli diskriminasiyasının ən mənfur formasından imtina etməsinə baxmayaraq gürcülərin kütləvi məskunlaşması davam edirdi (2, 20).

Abxaziyanın Gürcüstan SSR-in tərkibində olduğu dövrü abxaz və gürcü alimləri ziddiyyətli mövqelərdən qiymətləndirirlər. Abxaz tədqiqatçıları öz xalqlarının bütün bədbəxtliklərini müttəfiq respublika üzrə əhalinin gürcüləşməsini birgə həyata keçirən gürcü mənşəli ittifaq rəhbərləri və respublika hakimiyyəti ilə əlaqələndirirlər. Lakin gürcü tərəfi hesab edir ki, bütün bədbəxtliklər və fəlakətlər «Moskva ağalığı» adı ilə şüurlu olaraq qardaş xalqları ayıran və bir-birinə qarşı qoyan ittifaq rəhbərliyinin siyasəti ilə şərtlənir.

Deyilən fikirləri ümumiləşdirərək belə nəticəyə gəlmək olar ki, gürcü-abxaz münaqişəsində həm daxili, həm də xarici amillərin təsiri

böyüк olmuşdur. Laкin bu münaqişədən fərqli olaraq Qarabağ münaqişəsində birmənalı şəкildə xarici amillərin təsirini vurğulamaq lazımdır. Hər iкi münaqişədə, şübhəsiz, Rusiya imperiyasının rolu danılmazdır və bəlкə də bu münaqişələri birləşdirən məsələlərdən biri məhz Rusiyanın Cənubi Qafqaz siyasətidir.

## ƏDƏBİYYAT


1. Алиев И. Нагорный Карабах: История, факты, события, Баку: Элм, 1989, 104 с.
2. Анчабадзе З.В. Из истории средневековой Абхазии. Автореф. дисс. на соиск. уч. ст. д-ра. ист. наук, Тбилиси: 1960, 40 с.
3. Дзидзария Г.А. Присоединение Абхазии к России и его историческое значение. Сухуми: Алашара (Свет), 1960, 192 с.
4. Крылов А. Проблемы этногенеза и грузино-абхазский конфликт // Центральная Азия и Кавказ, 2(14), 2001; http//www.ca-c.org/online/2001/journal_rus/cac-02/14.krylru. shtml.
5. Малышева Д. Феномен этносепаратизма на Кавказе и мировой опыт // Центральная Азия и Кавказ, 1999, №3 (4), с. 29-34.
6. Сагария Б.Е. Образование Абхазской АССР: Автореф. дис. на соиск. уч.ст. кандидата ист. наук. Сухуми: 1964, 27 с.


## КАРАБАХСКИЙ И ГРУЗИНО-АБХАЗСКИЙ КОНФЛИКТЫ
**(проблема этногенеза)**


**Р.Ш.ГАСАНОВ**


### РЕЗЮМЕ


В статье автор рассматривается армяно-азербайджанский, Нагорной Карабахский и грузино-абхазский конфликты и, сравнивая эти проблемы, он анализирует и определяет их отличительные особенности. Обратившись к истории этих конфликтов, автор исследует проблему этногенеза и его роль в их образовании. Автор, рассматривая эту проблему, указывает на специфику конфликтов, учитывает взаимосвязь численности этих народов. Можно сказать, что похожей стороной этой проблемы является политическая линия Российской Федерации.


## THE GARABAKH AND GEORGIA-ABKHAZ CONFLICTS
**(The problem of ethnogeny)**


**R.Sh.HASANOV**


### SUMMARY


In the article the author considers the Armenian-Azerbaijan, Mountainous-Karabakh and Georgian-Abkhaz conflicts, and comparing these problems he analyses and defines their differences. Applying to the history of these conflicts, the author explores the problem of ethnogeny and its role in their formation. Considering these problems the author remarks the specification of the conflicts, takes into account the correlation of population of these peoples. We can say, that the similar side of these problems is the political line of Russian Federation.